**AZƏRBAYCAN RESPUBLİKASI**
**İQTİSADİYYAT NAZİRLİYİ**

# L Ə N K Ə R A N
# İQTİSADİ RAYONUNUN
# P A S P O R T U

**Bakı - 2015**

**AZ1012, Azərbaycan Respublikası, Bakı şəhəri, Zərdabi prospekti, 88-A**

**Telefon: 430 01 70; Faks: 430 03 06; Elektron poçt: *office@ier.az***
**İnternet səhifəsi: *http://www.ier.az***

# LƏNKƏRANİQTİSADİ RAYONUNUN PASPORTU

**Adı:** **Lənkəran iqtisadi rayonu**

**Ərazisi:** **6,070 min km$^2$**

**Əhalinin sayı:** **893.3 min nəfər***(01 yanvar 2015-ci il)*

**Əhalinin sıxlığı:** **1 km$^2$-147 nəfər***(01 yanvar 2015-ci il)*

**Lənkəran iqtisadi rayonuna daxildir:**

*Astara rayonu*
*Cəlilabad rayonu*
*Lerik rayonu*
*Lənkəran rayonu*
*Masallı rayonu*
*Yardımlı rayonu*



# MÜNDƏRİCAT


**1. İNZİBATİ VƏ İDARƏETMƏ QURULUŞU ..... 5**
**2. İQTİSADİ RAYONUN COĞRAFİ MÖVQEYİ ..... 6**
**3. TƏBİİ EHTİYATLAR ..... 9**
**4. SOSİAL-İQTİSADİ İNKİŞAFIN MÜASİR VƏZİYYƏTİ ..... 10**
**5. DEMOQRAFIYA ..... 14**
**6. ƏMƏK BAZARI ..... 16**
**7. SƏNAYE ..... 21**
**8. KƏND TƏSƏRRÜFATI ..... 24**
**9. TİKİNTİ VƏ İNVESTİSİYA ..... 26**
**10. TİCARƏT VƏ XİDMƏT ..... 29**
**11. NƏQLİYYAT VƏ RABİTƏ ..... 33**
**12. BÜDCƏ-MALİYYƏ SEKTORU ..... 38**
**13. SOSİAL SAHƏ ..... 42**
***13.1 Səhiyyə ..... 42***
***13.2 Təhsil ..... 44***
***13.3 Mədəniyyət ..... 47***
***13.4 Sosial təminat ..... 49***
***13.5 Mənziltəsərrüfatı ..... 50***
***13.6 Turizm ..... 52***
***13.7 Cinayətkarlıq və hüquqpozmalar ..... 53***
**14. EKOLOGİYA ..... 54**
**15. SAHIBKARLIĞA KÖMƏK MİLLİ FONDU TƏRƏFİNDƏN SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ VERİLMİŞ KREDİTLƏR HAQQINDA MƏLUMATLAR ..... 56**
**16. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-CÜ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI ÜZRƏLƏNKƏRAN İQTİSADİ RAYONUNDA İNVESTİSİYA QOYULUŞLARININ HƏYATA KEÇİRİLMƏSİ NƏZƏRDƏ TUTULAN SAHƏLƏR ..... 58**
**17. LƏNKƏRAN İQTİSADİ RAYONUNDA POTENSİAL İNVESTİSİYA İSTİQAMƏTLƏRİ ..... 64**

# GİRİŞ

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda 2015-ci ilin iş planına uyğun olaraq “Regionların davamlı inkişaf problemləri” şöbəsində “Lənkəran iqtisadi rayonunun pasportu” tədqiqat işi yerinə yetirilmişdir. Tədqiqat işinin yerinə yetirilməsi prosesində həm inkişaf etmiş ölkələrin, həm də inkişaf etməkdə olan ölkələrin, xüsusilə Rusiya, Belarus, Ukrayna respublikalarının təcrübələri öyrənilmiş və Azərbaycan şəraiti üçün məqbul hesab olunan struktur müəyyən olunmuşdur. Müəyyən olunmuş struktura uyğun məlumatların toplanlması işi aparılmış, həmin məlumatlar emal olunmuş və stuktura uyğun yerləşdirilmişdir. Tədqiqat işində iqtisadi rayonun ərazisi, inzibati ərazi bölgüsü, coğrafi yerləşməsi, relyef, iqlimi, faydalı qazıntı ehitaları, iqtisadi potensialı, o cümlədən iqtisadi rayonun əhalisi, əmək ehtiyatları, məhsul buraxılışı, sənaye, kənd təsəsrrüfatı, tikinti, nəqliyyat, rabitə, təhsil, elm, mədəniyyət, turizm, ticarət və xidmət, ekologiya sahələrinin əsas göstəriciləri müxtəlif cədvəl, diaqram və şəkillərdən istifadə etməklə verilmişdir. Həmçinin regionun investisiya istiqamətləri göstərilmiş və burada olan müəssisə və təşkilatların siyahısı da göstərilmişdir.

Tədqiqat işi iqtisadi rayonun sosial-iqtisadi vəziyyəti haqqında informasiya verməklə, mövcud potensialdan istifadə səviyyəsini qiymətləndirmək, regionun iqtisadiyyatının ayrı-ayrı sahələrinə xarici və yerli investorları cəlb etmək üçün mühüm əhəmiyyətə malikdir.

## 1. İNZİBATİ VƏ İDARƏETMƏ QURULUŞU

Respublikanın digər regionlarında olduğu kimi Lənkəraniqtisadi rayonunda da inzibati və idarəetmə quruluşu yerli icra hakimiyyəti və bələdiyyələrdən ibarətdir.

Lənkəran-Astara iqtisadi rayonu 6 inzibati rayondan – Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı inzibati rayonlarından ibarətdir. İqtisadi rayonda 8 şəhər, 6 rayon 13 qəsəbə, 156 kənd inzibati ərazi vahidləri və 642 kənd yaşayış məntəqələri vardır. Lənkəran iqtisadi rayonunda 500 bələdiyyə fəaliyyət göstərir. İqtisadi rayona daxil olan hər bir inzibati rayon hələ sovet dövründə, 08 avqust 1930-cu il tarixində Azərbaycan SSR Ali Sovetinin qərarı ilə yaradılmışdır. Eyni inzibati bölgülər Azərbaycan müstəqillik əldə etdikdən sonra da saxlanılmışdır. Hər bir inzibati rayona Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilən icra hakimi başçılıq edir.Bələdiyyələr, respublikada həyata keçirilə səsvermə yolu ilə həyata keçirilir.  Rayon, şəhər və şəhər rayonlarının icra başçıları öz ərazilərində yer-ləşən müvafiq kəndlərdə və qəsəbələrdə icra hakimiyyətinin nümayəndəliklərini yaradır, icranümayəndələrinin təyinatını həyata keçirirlər. Qeyd etmək lazımdır ki, kəndlərə və qəsəbələrə bölünmüş rayonlarda bələdiyyələr ümumlikdə rayon üzrə yox, bu ərazi vahidlərinə əsasən yaradılmışdır. Belə hallarda bələdiyyələr arasında şaquli və üfiqi asıllıq mövcud deyil və hər bələdiyyə müstəqil hüquqi şəxs kimiinə çıxış edir. Rayonlara və qəsəbələrə bölünmüş şəhərlərdə isə bələdiyyələr inzibati-ərazi vahidləri üzrə formalaşdırılmışdır.

## 2. İQTİSADİ RAYONUN COĞRAFİMÖVQEYİ

Lənkəran iqtisadi rayonunun ərazisi 6,070 min km$^2$ –dir (respublika ərazisinin 7,0%). Lənkəran-Astara iqtisadi rayonu cənubdan və qərbdən İran, şərqdən Xəzər dənizi, şimaldan və şimal-şərqdən Kür iqtisadi rayonu ilə həmsərhəddir. Azərbaycanı İranla əlaqələndirən magistral şosse və dəmir yollarının ərazidən keçməsi, həmçinin, şərqdən Xəzər dənizi, qərbdən və cənubdan İranla həmsərhəd olması Lənkəran iqtisadi rayonunun cografi mövqeyinin çox əlverişli və Azərbaycan dövləti üçün vacib olmasına şərait yaradır.

Rütubətli subtropik zonada yerləşən Lənkəran iqtisadi rayonu təbii şəraitinə və müxtəlif relyef formalarına görə respublikanın digər iqtisadi rayonlarından fərqlənir. Ərazi Lənkəran ovalığı və Talış dağlarından ibarət iki hissəyə ayrılaraq şərqdən qərbə doğru yüksəlir. Hündürlük fərqi Xəzər dənizi sahillərində -27 m-dən Talış dağlarının Gömürgöy zirvəsində 2493 metrədək dəyişir. Lənkəran ovalığı şimaldan cənuba 70 km uzanaraq, şimaldan Viləşçay, cənubdan Astara çayı ilə sərhədlənir. Ovalığın eni isə 10 km olaraq Talış dağlarının ətəyi və Xəzər dənizi sahili boyu uzanır.

Rayonun dağlıq hissəsi paralel olaraq uzanan Talış, Pestəsər və Burovar silsilələrindən ibarətdir. Ən yüksək və dənizdən daha çox uzaq yerləşən Talış dağları şimal-qərbdən cənub-şərqə 100 km-ə yaxın Azərbaycan-İran sərhəddi boyu uzanır. İran ərazisinə daxil olan silsilənin mütləq yüksəkliyi qərbdə, mərkəzdə və şərqdə 2000 m qalan hissələrdə isə 2400 m-dir. Peştəsər silsiləsi demək olar ki, şimal-şərqdə Talış silsiləsinə paralel uzanır. Silsilə çay dərələri ilə parçalanmışdır. Silsilənin mütləq yüksəkliyi 1300 m-lə 1800 m arasında olub suayrıcı hissəsi çox hallarda hamardır.Burovar silsiləsi alçaq dağlıq qurşaqda yerləşərək ən hündür yeri 1000 m-dən bir az artıqdır. Qərb hissəsində yerləşən Talış dağları və Lənkəran ovalığının Xəzər dənizinə yaxınlığı Lənkəran iqtisadi rayonunda iqlim müxtəlifliyini təmin edir. Ərazi təxminən, 500 m hüdürlüyə qədər nəm subtropik iqlimlə səciyyələnir. Fəal tempraturların cəmi 3500-4500°C, şaxtasız günlərin müddəti 225-290 gün arasında dəyişir. Yay isti və əsasən quru keçir. İyul ayının orta temperaturu 24-26°C, mütləq

maksimumları isə 33-35°C təşkil edir. Qış çox mülayim keçir. Yanvar ayının orta tempraturu 2-4°C isti, mütləq minimumların orta kəmiyyəti 5-11°C şaxta təşkil edir. Qarlı günlərin sayı 10-30 gün arasındadır. Ən çox yağıntı (1200-1300 mm) Lənkəran və Astara ərazisnə düşür. Yağıntının miqdarı 500 mm-dən yuxarı olan ərazilərdə subtropik iqlimin əlamətləri tədricən itir və yuxarı qalxdıqca yağıntı 400-600 mm-dək azalır və quru yay ilə mülayim-isti iqlim hökm sürür. Dağlıq ərazilərdə yay nisbətən sərin keçir, iyul ayının orta tempraturu 19-20°C, şaxtasız günlərin sayı isə 210-225 gün təşkil edir. Daglıq ərazilər davamlı qar örtüyü ilə səciyyələnir və qarlı günlərin sayı 30-60 gün arasında dəyişir. Ümumən, Lənkəranregionunda havanın orta illik temperaturu 14 $^{0}$C-dir.

Lənkəran iqtisadi rayonu sıx çay şəbəkəsinə malikdir. Rayonun iri çayları Viləş, Lənkəran, Astaraçay, Təndərud, Göytəpə Xəzər dənizi hövzəsinə aiddir. Rayonun çayları əsasən yağış sularından qidalandığından su rejimi fəsillər üzrə qeyri-bərabər paylanmışdır. Belə ki, illik su axımının yalnız 10-15%-i suya daha çox tələbat olan yay aylarının payına düşür. Məhz bu səbəbdən rayonun su təchizatını və suvarma əkinçiliyini daha da inkişaf etdirmək məqsədilə çayların üzərində bir neçə su anbarı tikilmişdir ki, onlardan da ən böyüyü 1977-ci ildə tikilmiş Xanbulançay su anbarıdır.

Lənkəran iqtisadi rayonunun torpaq örtüyü müxtəlifdir. Lənkəran ovalığında qleyli-küli-sarı, düzənlik-dağətəyi zonada meşə, Talış dağlarında sarı, qəhvəyi dağ-meşə çinli və dağ çəmən torpaqları yayılmışdır.

Qəhvəyi dağ-meşə torpaqları quru və mülayim isti iqlim (yağıntıların ümumi miqdarı 400 mm, orta illik temperatur 12$^{o}$C) şəraitində formalaşır. Bu torpaqlar iqtisadi rayonun orta dağlıq və dağətəyi qurşağının 600-1200 m hündürliyində yayılmışdır. Bu tip torpağın əmələ gəlməsi meşələrin tədricən seyrəkləşməsi, ağacları kolların əvəz etməsi ilə bağlıdır. Meşə örtüyünün seyrəkləşməsi və ot bitkilərinin yaxşı inkişafı torpaqda böyük miqdarda kök kütləsinin və humusun (6% və daha çox) toplanmasına səbəb olmuşdur. Qəhvəyi dağ-meşə torpaqları meşələr altında olduğundan torpaq və su qoruyucusu əhəmiyyətə malikdirlər. Lakin bu torpaqların bir hissəsi əkinçilikdə də istifadə olunur. Qəhvəyi dağ-meşə torpaqları yüksək potensial

münbitliyi ilə səciyyələnir və onlar üzüm, bağ və taxıl bitkiləri altında uğurla mənimsənilir.

Respublika ərazisində sarı torpaqlar yalnız bu iqtisadi rayonun dağətəyi və ovalıq ərazilərində yayılaraq 157,1 min ha və ya bütün torpaqların 1,8%-ni tutur. Bu torpaqlar orta illik temperaturu 14$^{o}$C və illik yağıntılarının miqdarı 1300-1900 mm (cənubda) olan rütubətli subtropik iqlimin Aralıq dənizi tipi şəraitində formalaşır. Yağıntıların böyük miqdarı payız və qış fəsillərində düşür.

Sarı torpaqlar şabalıdyarpaq palıd ağaclarından ibarət Hirkan tipli meşələr altındadır. Bu torpaqların böyük hissəsi çay plantasiyaları altında yerləşmişdir. Bu torpaqların iki növü-dağ sarı və sarı podrollu səciyyəvidir.

Dağ sarı torpaqları dağətəyi qurşaqda yerləşmişdir, relyef və iqlim şəraitindən asılı olaraq müxtəlif qalınlığa malikdir. Torpağın üst qatında humusun miqdarı 6-8%-dir.Düzən sahələrdə düzən meşələri (və ya mənimsənilən sahələr) altında qrunt sularının yüksək olduğu şəraitdə müxtəlif dərəcəli podzolluğa malik olan sarı-podzollu torpaqlar formalaşır ki, onun da yuxarı qatında humus təqribən 5%-dir.

Torpaq örtüyünün strukturu kompleksliliyi ilə səciyyələnir. Bu özünü şimal hissədə qonur dağ meşə torpaqları ilə sərhəddə daha aydın büruzə verir. Burada sarı dağ-meşə, sarı podzollu və sarı podzollu-qleyli torpaqların əmələ gətirdiyi birləşmələri müşahidə etmək mümkündür.Sarı-podzollu torpaqlar çay bitkisinin inkişafı üçün əlverişli göstəricilərə malikdir: turş reaksiya və profilin karbonatlı olmaması; ovalıq relyefi şəraitində yerləşməsi və mexanizasiya işlərinin geniş miqyasda tətbiqi imkanlarının böyük olması, eroziya proseslərinin zəif inkişafı; qrunt nəmliyinin olmaması. Bu cür göstəricilərə malik olan torpaqlar çay və digər subtropik bitkiləri yetişdirməyə imkan verir.Sarı-podzollu gleyli torpaqları dağətəyi düzənliklərə və qədim terraslarda olub izafi nəmlik və ya qrunt sularının səthə yaxın olduğu şəraitdə formalaşır. Bu torpaqlar çay, qismən işə düyü və tərəvəz bitkiləri yetişdirilməsi üçün istifadə olunur.

## 3. TƏBİİ EHTİYATLAR

Lənkəran iqtisadi rayonu faydalı qazıntılarla o qədər də zəngin deyil. Rayonda qeyri-filiz yataqlarından tikinti qumu, gil, çaydaşı, gips, mərmər, həmçinin müalicə əhəmiyyətli mineral sular və meşələr kimi təbii ehtiyatlar vardır. İqtisadi rayon respublikamızın sıx meşə örtüyünə malik rayonlarından biri kimi səciyyələnir. Ərazinin 23,1%-ni örtən meşələr əsasən Talış dağlarını əhatə edir. Ən çox meşələr Astara (25,3%), Lerik (24,4%) və Lənkəran inzibati rayonlarının (20,0%) ərazisindədir. Ən az meşə sahəsi isə Cəlilabad inzibati rayonunun ərazisindədir. Rayonun meşələrində hirkan pelikt bitki növlərindən dəmirağac, şabalıdyarpaq palıd, ipək akasiya, vələs, cökə, şərq fıstığı, məxməri ağcaqayın ağacları üstünlük təşkil edir.

Lənkəran iqtisadi rayonu zəngin rekreasiya-kurort ehtiyatlarına malikdir ki, bunların da əsasını çoxlu soyuq və isti mineral bulaqlar təşkil edir. İqtisadi rayonun mineral bulaqlarının müalicəvi xüsusiyyətləri vardır. Təkcə Astara rayonu ərazisində 20-yə qədər mineral bulaq var. Bunlardan Ərgivan və Taxtadəran bulaqlarını xüsusi qeyd etmək lazımdır. Bu bulaqların suyunun temperaturu $35^o$-$50^o$-dir. Yüksək minerallaşma xüsusiyyətinə malik olan bulaqlardan biri də Acışor bulağıdır. Lənkəran inzibati rayonundakı Yuxarı Lənkəran, Aşağı Lənkəran, Hövzava, Nəfthoni, Meşəsu, İbadı su və s. bulaqlarının tərkibi kükürdlə və müalicə əhəmiyyətli mineral maddələrlə zəngindir. Masallı, Lerik, Yardımlı inzibati rayonları ərazisində də müalicə əhəmiyyətli çoxlu mineral bulaqlar vardır. Müxtəlif quşların qışladığı Qızılağac qoruğu, relikt bitkilərin saxlanıldığı Hirkan qoruğu və Zuvand yasaqlığı Lənkəran iqtisadi rayonunun ərazisində yerləşir.Qızılağac qoruğu 1929-cu ildə yaradılmışdır və sahəsi 88,0 min hektardır. Qoruqda qu quşu, qazlar, ördəklər, sultan toyuğu, qızıl qaz, vağlar və s. qorunur.Hirkan qoruğu 1936-cı ildə yaradılmışdır və sahəsi 2,9 min hektardır. Qoruqda əsasən relikt bitkilər - dəmirağac, şabalıdyarpaq palıd, Xəzər şanagülləsi, azat ağacı və s. qorunur. Yardımlı inzibati rayonunun ərazisində Zuvand yasaqlığı yerləşir. Bu yasaqlığın sahəsi 15,0 min hektardır və burada qaya keçisi mühafizə olunur.

## 4. SOSİAL-İQTİSADİ İNKİŞAFIN MÜASİR VƏZİYYƏTİ

Ölkə iqtisadiyyatında həyata keçirilmiş iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı istiqamətində aparılan tədbirlər, sahibkarlığın inkişafı sahəsində görülən işlər öz müsbət nəticələrini verməyə başlamışdır. Belə ki, 2003-2014-cü illərdə Lənkəran iqtisadi rayonunun ümumi məhsul buraxılışının həcmi 5.7 dəfə, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi isə 4.9 dəfə artmışdır. 2014-cü ildə iqtisadi rayonun ölkə əhalisinin 9,3% təşkil etdiyi halda, məhsul və xidmətlərin ümumi buraxılışında xüsusi çəkisi 2.1%, sənaye məhsulunda xüsusi çəkisi 0.19%, kənd təsərrüfatı məhsulunda xüsusi çəkisi 10.5%, pərakəndə əmtəə dövriyyəsində xüsusi çəkisi isə 5.1%bərabər olmuşdur.Adambaşına düşən ümumi məhsul ölkə üzrə orta göstəricidən aşağı olmuşdur. Belə ki, 2014-cü ildə adambaşına düşən ümumi məhsulun həcmi ölkə üzrə 6326.3 manat olduğu halda, iqtisadi rayonda bu göstərici 1459.1 manata, o cümlədən, Astara rayonunda 1547.6 manata, Cəlilabad rayonunda 1708.5 manata, Lerik rayonunda 1006.1 manata, Lənkəran rayonunda 1786.2 manata, Masallı rayonunda 1336.4 manata, Yardımlı rayonunda isə 1055.2 manata bərabər olmuşdur. Bu da ölkədə neft sektoru ilə əlaqədar sahələrin üstün inkişafı ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, 2003-2014-ci illər ərzində Astara rayonunda ümumi məhsulun buraxılışının həcmi 5.9 dəfə, Cəlilabad rayonunda 4.6 dəfə, Lerik rayonunda 4 dəfə, Lənkəran rayonunda 5.6 dəfə, Masallı rayonunda 5 dəfə, Yardımlı rayonunda 5.4 dəfə artmışdır.

Ölkədə son illərdə iqtisadi artım yüksək olmuşdur. Neft və qaz hasilatı və onunla əlaqədar sahələrin ölkənin ümumi daxili məhsulunda payının artması və bu sahələrin isə əsasən Bakı şəhərində yerləşməsi iqtisadiyyatda digər rayonların, o cümlədən Lənkəran iqtisadi rayonunun payının aşağı olmasına gətirib çıxarmışdır.

**Cədvəl 1**

## Lənkəran iqtisadi rayonunun ümumi iqtisadi göstəriciləri

(həqiqi qiymətlərlə, mln. manat)

| | Məhsulun ümumi buraxılışı | | | | | | | Sənaye məhsulunun həcmi | | | | | | | Cəmi kənd təsərrüfatı məhsulu | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2003** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2003** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2003** | **2009** | **2010** | **2011** | **2013** | **2014** |
| **Ölkə üzrə cəmi** | **10490,4** | **39578,5** | **47659.9** | **58916.7** | **61480.3** | **66240.1** | **60688.8** | **4934,5** | **22563,6** | **27978.2** | **35026932** | **34565040** | **33898.1** | **32110310** | **1366,52** | **1655,5** | **3877.7** | **4525194** | **5244.6** | **5225769.5** |
| **Lənkəran iqtisadi rayonu** | **254,7** | **689,4** | **829.3** | **1011.5** | **1116.9** | **1254.2** | **1303.47** | **10,9** | **42,4** | **49.5** | **65920.2** | **65844.2** | **65.1** | **70995** | **156,2** | **386** | **385.1** | **451779** | **550.8** | **551604** |
| **Astara rayonu** | 26,9 | 91,4 | 116.2 | 112.9 | 133.7 | 130.3 | 160.8 | 0,6 | 12,8 | 10.6 | 11746.3 | 11525.6 | 10.8 | 12207 | 17,6 | 53,1 | 52.9 | 54590.6 | 69.5 | 68152.0 |
| **Cəlilabad rayonu** | 76,5 | 180,9 | 201.4 | 268.7 | 274.5 | 350.3 | 357.6 | 0,6 | 2,3 | 6.7 | 6218.4 | 7289.7 | 4.9 | 5572 | 54,7 | 118,8 | 107.6 | 136844.4 | 193.5 | 192434.7 |
| **Lerik rayonu** | 20,1 | 49,9 | 58 | 62.4 | 82.5 | 83.6 | 81.3 | 0,1 | 0,5 | 0.9 | 398.8 | 564 | 757 | 912 | 14,7 | 26,3 | 28.1 | 32175.2 | 38.2 | 35854.1 |
| **Lənkəran rayonu** | 62,0 | 175,1 | 210.9 | 278.1 | 323.3 | 352.7 | 349.4 | 5,0 | 9,3 | 13.3 | 21478.9 | 18520.7 | 17.1 | 20304 | 29,8 | 85,8 | 90 | 99228.7 | 109.3 | 117733.6 |
| **Masallı rayonu** | 57,1 | 166,2 | 202.6 | 248.2 | 353.6 | 269 | 287.6 | 4,5 | 17,1 | 21.6 | 25467.3 | 27326.4 | 30.7 | 31323 | 31,5 | 17,7 | 87 | 106240.8 | 113.4 | 107750.1 |
| **Yardımlı rayonu** | 12,2 | 28,9 | 40.2 | 41.2 | 49.3 | 68.3 | 66.8 | 0,1 | 0,4 | 0.6 | 610.5 | 617.8 | 667 | 677 | 7,9 | 84,3 | 19.5 | 22698.7 | 26.7 | 29679.8 |

Ölkənin ümumi məhsul buraxılışında Lənkəran iqtisadi rayonunun payı 2003-cü ildə 2.4%-dən 2014-cü ildə 2.1% qədər düşmüşdür. İqtisadi rayonun ümumi məhsul buraxılışında isə Astara rayonunun payı 2003-cü ildə 10.6%, 2014-ci ildə 12.3%, Cəlilabad rayonunun payı müvafiq olaraq 30% və 27,4%, Lerik rayonunda payı müvafiq olaraq 7.9% və 6.2%, Lənkəran rayonunda payı müvafiq olaraq 25.4% və 27%, Masallı rayonunda payı müvafiq olaraq 22.4% və 22%, Yardımlı rayonunda isə müvafiq olaraq 4.8% və 5.1% olmuşdur.

Lənkəran iqtisadi rayonunun ümumi məhsul buraxılışında sənayenin payı 2003-cü ildə 4,3%, 2014-ci ildə 5.4%, kənd təsərrüfatının payı isə müvafiq olaraq 61.3% və 42.3% bərabər olmuşdur. Göründüyü kimi, kənd təsərrüfatının payının azalmasına baxmayaraqhələ də iqtisadi rayonun iqtisadiyyatında üstünlük təşkil edir.

**Cədvəl 2**

**Təsərrüfat subyektlərinin sayı**

(ilin sonuna, vahid)

| | **2003** | | **2009** | | **2010** | | **2011** | | **2012** | | **2013** | | **2014** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki |
| Ölkə üzrə cəmi | **61136** | **157986** | **89939** | **272597** | **93416** | **306933** | **75632** | **364581** | **78966** | **432141** | **86010** | **454997** | **94563** | **519860** |
| Lənkəran iqtisadi rayonu | **3624** | **12275** | **4433** | **19049** | **4637** | **22514** | **3962** | **25958** | **4201** | **29717** | **4772** | **34141** | **5390** | **39075** |
| Astara rayonu | 345 | 1431 | 388 | 1870 | 408 | 2118 | 345 | 2390 | 361 | 2676 | 375 | 3091 | 404 | 3691 |
| Cəlilabad rayonu | 688 | 2172 | 1015 | 4839 | 1042 | 6611 | 983 | 7719 | 1027 | 8556 | 1068 | 9309 | 1091 | 10161 |
| Lerik rayonu | 403 | 462 | 429 | 920 | 430 | 1082 | 372 | 1334 | 377 | 1628 | 395 | 1987 | 408 | 2263 |
| Lənkəran rayonu | 1141 | 4427 | 1367 | 5891 | 1434 | 6564 | 1132 | 7410 | 1235 | 8563 | 1586 | 10271 | 1800 | 11938 |
| Masallı rayonu | 771 | 3264 | 933 | 4734 | 1021 | 5267 | 827 | 6113 | 895 | 7146 | 1008 | 8083 | 1324 | 9358 |
| Yardımlı rayonu | 276 | 519 | 301 | 795 | 302 | 872 | 303 | 992 | 306 | 1148 | 340 | 1400 | 363 | 1664 |

Baxılan 2003-2014-cü illərdə regionda təsərrüfat subyektlərinin sayı artmışdır. Belə ki, bu dövrdə regionda təsərrüfat fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin sayı 1.48 dəfə, fiziki şəxslərin sayı isə 3.18 dəfə artmışdır.

Son illərdə regionda iqtisadi fəallığın artması orta aylıq əmək haqqının da artmasına gətirib çıxarmışdır. Belə ki, 2014-ci ildə regionda orta aylıq nominal əmək haqqı 2003-cü ilə nisbətən 4.3 dəfə artmışdır. Bununla yanaşı, regionda orta aylıq nominal əmək haqqı ölkə üzrə orta səviyyədən 2014-cü ildə 39.6% az olmuşdur.

# 5. DEMOQRAFIYA

01 yanvar 2014-cü ilin əvvəlinə olan məlumatına görə Lənkəran iqtisadi rayonunun əhalisi 893.3 min nəfər və ya ölkə əhalisinin 9,3%-i təşkil etmişdir. Regionun əhalisinin 27.1%-i şəhərlərdə, 72.9%-i kəndlərdə yaşayır. Ölkə üzrə bu göstəricilər müvafiq olaraq 53.2% və 46.8% təşkil edir. Göründüyü kimi iqtisadi rayon əhalisinin böyük hissəsi kənd əhalisinin payına düşür.

**Şəkil 1. Lənkəran iqtisadi rayonunda əhalinin sayı**

(ilin əvvəlinə, min nəfər)




**Şəkil 2. Lənkəran iqtisadi rayonunda əhalinin kənd və şəhər əhalisi üzrə bölgüsü**

(faizlə)



## Şəkil 3. Lənkəran iqtisadi rayonu üzrə doğumun, ölümün və təbii artımın ümumi sayı

(nəfər)




**Cədvəl 3**

## Lənkəran iqtisadi rayonunda əhalinin yaş qrupları üzrə payı

(2015-ci il məlumatlarına əsasən)

| | Cəmi | | Kişi | | Qadın | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| Cəmi | 893323 | 100 | 449363 | 100 | 443960 | 100 |
| o cümlədən: | | | | | | |
| 0-4 | 88693 | 9.92 | 47956 | 10.67 | 40737 | 9,17 |
| 5-9 | 68746 | 7.69 | 37140 | 8.26 | 31598 | 7,11 |
| 10-14 | 65415 | 7.32 | 34714 | 7.72 | 30701 | 6,91 |
| 15-19 | 75646 | 8.46 | 39279 | 8.74 | 36367 | 8,19 |
| 20-24 | 87857 | 9.83 | 45138 | 10,04 | 42719 | 9,62 |
| 25-29 | 83213 | 9.31 | 42167 | 9,38 | 41046 | 9,24 |
| 30-34 | 74665 | 8.35 | 37775 | 8.40 | 36890 | 8,30 |
| 35-39 | 65385 | 7,31 | 32908 | 7,32 | 32477 | 7,31 |
| 40-44 | 59570 | 6.66 | 29520 | 6,87 | 30050 | 6,76 |
| 45-49 | 58544 | 6,55 | 28188 | 6,56 | 30356 | 6,83 |
| 50-54 | 53350 | 5.97 | 25050 | 5.57 | 28300 | 6,37 |
| 55-59 | 41850 | 4.68 | 19363 | 4.30 | 22487 | 5,06 |
| 60-64 | 25542 | 2.85 | 11543 | 2.56 | 13999 | 3,15 |
| 65-69 | 14825 | 1,65 | 6485 | 1,44 | 8340 | 1,87 |
| 70-74 | 9265 | 1,03 | 3730 | 0,83 | 5535 | 1,24 |
| 75-79 | 12644 | 1,41 | 5134 | 1,14 | 7510 | 1,69 |
| 80-84 | 5860 | 0,65 | 2382 | 0,53 | 3478 | 0,78 |
| 85-89 | 1764 | 0,19 | 741 | 0,16 | 1023 | 0,23 |
| 90-94 | 405 | 0,05 | 112 | 0,02 | 293 | 0,06 |
| 95-99 | 61 | 0,01 | 26 | 0,01 | 35 | 0,01 |
| 100- …. | 23 | 0,01 | 4 | 0,00 | 19 | 0,00 |

## 6. ƏMƏK BAZARI

Lənkəran iqtisadi rayonunun əmək bazarının əsas sosial-iqtisadi göstəricilərinin təhlili göstərir ki, regionda əmək ehtiyatlarının sayı 2014-cü ildə Lənkəran iqtisadi rayonunda muzdla işləyənlərin sayı 70.1 min nəfər olmuşdur ki, bu da, 2005-ci illə müqayisədə 3.2% çoxdur.

**Şəkil 4. Lənkəran iqtisadi rayonu üzrə muzdla işləyənlərin sayı**

(min nəfər)




2014-cü ildə Lənkəran iqtisadi rayonunda muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 273.6 manat olmuşdur ki, bu da, 2005-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 3,9 dəfə çoxdur. Ölkə üzrə müvafiq göstərici bundan 1,6 dəfə çoxdur.

## Şəkil 5. Muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı

(manat)




## Şəkil 6. Məşğulluq xidməti orqanlarında işsiz stasusu alan şəxslərin sayı

(nəfər)



**Şəkil 7. Lənkəran iqtisadi rayonunda işsizliyə görə müavinət alanların sayı**

(nəfər)




2014-cü ildə Lənkəran iqtisadi rayonunda 8610 yeni iş yerləri açılmışdır ki, ondan 6487 yer daimi iş yerləridir.

**Şəkil 8. 2014-cü ildə Lənkəran iqtisadi rayonu üzrə açılmış yeni iş yerləri**

**(nəfər)**



**Şəkil 9. 2014-cü ildə Lənkəran iqtisadi rayonu üzrə yeni acılmış daimi iş yerləri**

(nəfər)




**Şəkil 10. 2014-cü ildə Lənkəran iqtisadi rayonunda adambaşına gəlirlərin tərkibi**

(faiz)



**Şəkil 11.2014-cü ildə Lənkəran iqtisadi rayonunda rayonlar üzrə əhalinin gəlirləri**

(faiz)



# 7. SƏNAYE

Lənkəran iqtisadi rayonunun sosial-iqtisadi inkişafında sənaye sahəsi kənd təsərrüfatına nisbətən zəif mövqeyə malikdir. Belə ki, rayon üzrə ümumi məhsul buraxılışında sənaye məhsulunun həcmi 5.4% təşkil etmişdir. 2014-cü ildə Lənkəran iqtisadi rayonunun sənaye məhsulunun 59%-i Astara və Masallı rayonlarının payına düşmüşdür. Regionun sənayesində 2000-ci ildə 2950 nəfər işçi çalışdığı halda, 2014-cü ildə bu göstərici 5827 nəfərə bərabər olmuşdur. 2014-cü ildə regionun sənayesində orta aylıq əmək haqqı 284.9 manat olmuşdur.

**Şəkil 12.Fəaliyyət göstərən müəssisələrin sayı**

(vahid)



**Şəkil 13. Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi**

(əvvəlki ilə nisbətən, faizlə)




**Şəkil 14. Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi**

(müvafiq ilin qüvvədə olan həqiqi qiymətləri ilə, mln. manat)



**Cədvəl 4**

## İstehsal edilmiş sənaye məhsulunun (işlərin, xidmətlərin) fəaliyyət növləri üzrə bölgüsü

(min manat)

| | 2008 |
|---|---|
| cəmi; | 40348 |
| faydalı qazıntıların hasilatı (enerji materiallarsız) | 433,0 |
| içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 5295 |
| toxuculuq və tikiş sənayesi | 426.2 |
| oduncaqların emalı və ağacdan məmulatların hazırlanması | 88,2 |
| sellüloz-kağız istehsalı; nəşriyyat işi | 67,7 |
| rezin və plastik kütlə məmulatların istehsalı | 66,1 |
| digər qeyri-metal mineral maddələrin istehsalı | 1307 |
| metallurgiya sənayesi və metal məmulatların istehsalı | 52.1 |
| elektrik, optik və elektron avadanlıqların istehsalı | 7,3 |
| emal sənayesinin digər sahələri | 11727 |
| elektrik enerjisi, qaz və suyun istehsalı, bölüşdürülməsi | 20878 |

**Şəkil 15. Sənaye məhsulunda dövlət və qeyri-dövlət sektorunun payı**

(faiz)



# 8. KƏND TƏSƏRRÜFATI

Lənkəran iqtisadi rayonunun kənd təsərrüfatı sahəsi regionun sosial-iqtisadi inkişafında əhəmiyyətli paya malikdir. Belə ki, regionun ümumi məhsulunda kənd təsərrüfatının payı 2003-cü ildə 61,4%-ə, 2004-cü ildə 62%-ə, 2005-ci ildə 55,1%-ə, 2007-ci ildə 61,8%-ə, 2008-ci ildə 50%-ə, 2010-cu ildə46.5%-ə , 2011-ci ildə 44.7%-ə, 2012-ci ildə  43.9%-ə, 2014-cü ildə 42.3-ə bərabər olmuşdur. Azərbaycanda orta hesabla hər adambaşına 1,04 ha ümumi torpaq sahəsi düşürsə, Lənkəran iqtisadi rayonunda bu göstərici 0,7 ha təşkil edir.

**Cədvəl 5**

**Lənkəran iqtisadi rayonunda kənd təsərrüfatı bitkiləri üzrə əkin sahəsinin bölgüsü**

(hektar)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **cəmi:** | 99574 | 102538 | 102430 | 102395 | 94931 | 111206 | 117203 | 116301 | 116639 | 116663 | 121325 | 121094 |
| **dənli** | 78989 | 78040 | 76904 | 75187 | 67615 | 82173 | 89668 | 87321 | 87504 | 88522 | 90261 | 90885 |
| **Kartof** | 6779 | 9234 | 9449 | 9682 | 9492 | 11064 | 10728 | 11281 | 11493 | 11669 | 10504 | 9648 |
| **Tərəvəz** | 10422 | 11481 | 12180 | 12771 | 13339 | 13385 | 12170 | 11401 | 11547 | 11104 | 11110 | 10893 |
| **Bostanb itkiləri** | 1803 | 1827 | 1856 | 1944 | 1986 | 1970 | 1728 | 1674 | 1617 | 1539 | 1408 | 1412 |
| **meyvə** | 4144 | 4334 | 4377 | 4708 | 4783 | 4584 | 5048 | 5108 | 5192 | 5340 | 5466 | 5600 |
| **üzüm** | 263 | 273 | 837 | 820 | 1228 | 1230 | 1725 | 1732 | 1832 | 1732 | 1732 | 1732 |
| **çay** | 3598 | 3597 | 2860 | 1737 | 1664 | 952 | 734 | 527 | 743 | 813 | 844 | 924 |

**Cədvəl 6**

**Lənkəraniqtisadi rayonunun kənd təsərrüfatı bitkiləri üzrə istehsal**

(ton)

| | **2003** | **2004** | **2005** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Dənli bitkilər** | 191074 | 187419 | 186171 | 167985 | 191768 | 184015 | 121822 | 165566 | 174280 | 185501 | 179520 |
| **Çay** | 884 | 989 | 686 | 438 | 884 | 380 | 479 | 498 | 514 | 514 | 420 |
| **Kartof** | 122114 | 161776 | 164318 | 165446 | 190392 | 166390 | 148979 | 149852 | 155516 | 156378 | 127503 |
| **Tərəvəz** | 226690 | 253358 | 272222 | 287600 | 283635 | 254908 | 255747 | 255388 | 253592 | 247919 | 240048 |
| **Bostan bitkiləri** | 21149 | 22396 | 24773 | 26827 | 26755 | 21444 | 19255 | 19194 | 19194 | **17058** | 17145 |
| **Meyvə** | 41618 | 41908 | 44862 | 46629 | 39326 | 40798 | 41088 | 43747 | 54574 | 65158 | 57055 |
| **Üzüm** | 1877 | 657 | 1333 | 2269 | 2903 | 4566 | 5395 | 8338 | 10690 | 10826 | 11076 |

**Cədvəl 7**

## Lənkəraniqtisadi rayonunun kənd təsərrüfatı bitkiləri üzrə istehsal

(sent/ha)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Dənli bitkilər** | 24,2 | 24 | 24,2 | 24,6 | 24,8 | 23,3 | 20,5 | 14 | 18.9 | 19.7 | 20.6 | 19.8 |
| **Çay** | 2,5 | 2,7 | 2,4 | 3,5 | 2,6 | 3,2 | 5,3 | 9.2 | 10.3 | 10.6 | 12.5 | 10.2 |
| **Kartof** | 180 | 175 | 174 | 173 | 174 | 172 | 147 | 132 | 130 | 133 | 149 | 132 |
| **Tərəvəz** | 218 | 221 | 223 | 219 | 216 | 212 | 206 | 221 | 219 | 226 | 221 | 218 |
| **Bostan bitkiləri** | 117 | 123 | 133 | 134 | 135 | 136 | 124 | 115 | 119 | 122 | 121 | 121 |

## Şəkil 18. Lənkəran  iqtisadi rayonunda heyvandarlığın əsas göstəriciləri

(mal-qaranın sayı, baş)




**Cədvəl 8**

